# DİLİNƏ, VƏTƏNİNƏ BAĞLI KÖNÜLLƏR



**_Aygün SUTLANLI_**

*(Əvvəli ötən saylarımızda)*

* * *

Gülxani Pənah yaradıcılığında dağlar mövzusu xüsusi bir mövzudur. Böyük Qafqazın qoynunda doğulan, böyüyən, o dağlardan sevgi alan, o dağlardan qüvvət alan, o dağların qürurundan, əzəmətindən nəşət tapan bir könül üçün "dağlar" başqa bir varlıqdır. O dağların hər fəslinin gözəlliklərini, sərtliklərini görüb, olduğu kimi də sevmiş lirik şairə Gülxani Pənahın "Ağ libas geyinən dağlara bir bax" şeiri rəssamın çəkdiyi tabloya bənzəyir. Elə bir tablo ki, orda sərt qış bütünlüklə təsvir olunub. Şairə qış fəslindəki dağların gözəlliklərindən və fəsillərin dağlara bəxş etdiyi füsunkar libasından söz açır:

Ağ libas geyinən dağlara bir bax,
Qış gəlib, oturub şahlıq taxtında.
Ağ yorğan altında, el, oba, yaylaq...
Qış da bir qismətdir dünya baxtında.

Dağların döşünə buz naxış vurur,
Qış verir hökmünü çöllərə, düzə.
Aramsız yağdıqca qar dənələri,
Bir boy da qalxaraq çıxacaq dizə.

Sonuncu bənddəki fəlsəfi mahiyyəti duymamaq olmur.

Belə yazılıbdır alın yazısı,
Xoşbəxtlik özü də elə baxtadır.
Qışın da öz hökmü, öz istəyi var,
Onun da qisməti qardır, şaxtadır.

Müəllif bu misralarda da qışın dağlara necə tər-təmiz ağ libas geyindirməsindən bəhs edir. Əslində onun üçün ağ libasını geyinmiş dağlar körpə uşaqlar kimi məsum və tər-təmizdir. Elə buna görə də şairənin gözləri hər zaman bu məsum vüqarlı dağların gözəlliklərini görməklə, onların vəsfinə şeirlər yazmaqla yanaşı, dağlar onun üçün dərd or-tağıdır. Bəzən kimsəyə deyə bilmədiyi kədərini, həsrətini dağlarla bölüşmək üçün imkan, girəvə gəzir. Ona rahatlıq verməyən, bulud kimi dolan ürəyini, qəlbini boşaltmaq üçün dağlar ona daha yaxın sirdaşdır... Bəlkə düşünür ki, onun vətən itkisindən mum kimi əriyən qəlbinin sızıltılarını dağlar daha yaxşı duyar...

Deyirəm ki, bir çıxaydım dağlara,
Zirvələri qartal kimi aşaydım.
Sıldırımlı o dağların başında
Bulud deyil, leysan olub daşaydım.

Əridəydim zirvələrin buzunu,
Qaytaraydım çöldə qalan quzunu.
İtirdiyim çörəyimin duzunu,
Gözlərimin qorasına təpəydim!

Bənzətmələr ilə dolu olan bu misralarda yenə də bir miskinlik var, itirdiyimiz vətən, torpaq həsrəti var. "Əridəydim zirvələrin buzunu" - deyən şairə bəlkə elə qəlbinin buzunu əritmək üçün, ayrılıq həsrətinin sinəsinə yığdığı dərdi, qəmi boşaltmaq üçün dağların sevgisinə duyduğu ehtiyacı ifadə edir. Dağlardakı qüvvət, dəyanət, dözüm onun kimi incə qəlbli bir lirik qəhrəmanda yoxdur. Olmadı-ğından razıdır köləsi, qulu olmağa o dağların...

Qoy yandırsın, kor eyləsin gözümü!
İstəyərsə qul eyləsin özümü!
İstəmirəm versin mənə dözümü!
Sellər kimi kükrəyəydim, coşaydım!

Bu dözüm, bu dəyanət olmayan, sellər kimi kükrəməyə, daşmağa hazır olan qəlbin istəyi, şikayəti, etirazı, kini, nifrəti "lənət eldən-obasından doyana" misrasının ruhundadır.

Çilənəydim yağış kimi hər yana,
Dırmaşaydım yalçın-yalçın qayana.
Lənət eldən-obasından doyana,
Vətən, səni hər an azad görəydim!

Səbir etməkdən bezən, haqq-ədalətin öz yerini tapma-sını istəyən bir qəlbin hayqırtısındakı arzular onun kimi bu gün milyonlarla yurdundan, elindən, evindən didərgin salınan azərbaycanlıların, suriyalıların, fələstinlilərin, iraqlıların, əfqanların... arzusudur. Bu misralarda bəşəriyyətin bö-yük dərdi, böyük arzusu, ağrı-acısı ümumiləşdirilib.

Nə dağ dərdi, dərə dərdi çəkəydim,
"Qaçqın", "köçkün" damğasını alaydım.
Tuş gələydim elə yurdda gülləyə,
Ölüb elə öz yurdumda qalaydım.

Müəllif burada vətən həsrəti ilə yanan qəlbinin ağrısını, acısını söyləyir. Digər şeirindən fərqli olaraq, o, burada dağların gözəlliklərindən danışmır, düşmən tapdağı alt-da qalan başı zirvəli dağlarından, dərəsindən, düzündən söhbət açır. "Əridəydim zirvələrin buzunu", "Qaytaraydım çöldə qalan quzunu" bu misralarda gözəl bir bənzətmə var. Müəllif əslində bu misralarla vətən həsrətinə son qoyub, itirilmiş torpaqlarımızın geri qaytarılmasını, elindən-oba-sından ayrı düşən, "qaçqın", "köçkün" damğası alan həm-vətənlərinin ana yurdlarına qayıtması istəyindən bəhs edir. Bu həsrət onun kövrək qəlbini elə yandırır ki, o, "Tuş gə-ləydim elə yurdda gülləyə,Ölüb elə öz yurdumda qalaydım"-söyləməklə onun üçün vətəndən dəyərli, ulu bir sev-ginin olmadığını bildirir.

Yüz minlərlə Qərbi Azərbaycanın, Xocalının, Qarabağın, Laçının, Kəlbəcərin... dağlarında, düzlərində donub qalan günahsız insanların, milyonlarla dənizlərdə sulara qərq olan miqrantların "qaçqın", "köçkün" taleyi qan kimi fışqırır bu misraların canından...

Dağlar Gülxani Pənaha bəşəriyyətin böyük, acı dərd-lərini qələmə almaq üçün bir bədii priyomdur, dağlar onun könül yoldaşıdır, qəlb sirdaşıdır. Bəlkə də heç kəslə bölüşə bilmədiyi könlünün dərdi-sərini o, rahatcasına dağlar ilə bölüşür. "Dağlar qucağında..." şeirindəki dağlar şairənin vətənidir, kül tökdüyü ocaq yeridir, dünyaya göz açdığı yer kürəsinin bir küncüdür... ona görə də dağları özünə arxa-dayaq bilir. Vətəni olanın dərdi böyüməz. Dərd o zaman böyüyür, metastaz verir ki, qürbətə düşür, qınaqlar yeyir, əsilsizin, cahilin, nadanın istehzasına tuş gəlir...

Dağlar qucağında körpə çocuqtək
Səsləyir-səsləyir sabaha məni.
Narahat anımda, çətin anımda
Elə bil tapşırır Allaha məni.

Dağ milli dünyagörüşümüzdə, mifoloji düşüncəmizdə qüdrətli varlıqdır. Türkün tapındığı ilkin təbiət varlıqlarından biri dağdır. "Göy Tanrısına yaxınlığına görə ulu əc-dadın təsəvvüründə Dağ kultlaşdırılmış, insanları Yarada-na bağlayan əsas vasitə sayılmışdır. Qədim türk inancına görə, Dünya Dağı üç qatdan ibarətdir: birinci qat, başı günəşə çatan, doqquz iqlimin kəsişdiyi ənginlikdə yerləşən Altundağdır; ikinci qat, yer üzündə, doqquz meşənin dərinliyində yerləşən Dəmirdağdır (mənbələrdə: Temirtav, Tömürtav); üçüncü qat isə yeraltı aləmin doqquz dənizinin birləşdiyi qaranlıq məkanda yerləşən Baqırdağdır. Dəmir-dağ göyün 12-ci qatına qədər yüksəlirmiş1. Dağ qoynunda məskunlaşan xalqın təbii keşikçisidir. Dağlar arxadır, dayaqdır. Dağ böyük məfhumdur. Şeirdə müəllif Dağı insanlaşdırır. Dağ elindən, yurdundan ayrı düşən insanların halına ağlayır:

Unutmur elindən girov gedəni,
Torpaq həsrətinə dözməyənləri.
Qısılıb yetimtək çadır küncünə,
Qərib cənnətləri gəzməyənləri.

"Dağ ilkin mifoloji düşüncədə kosmoqonik stixiya (yaradılış başlanğıcı) olub. Onun kosmoqonik prosesin əs-as obrazlarından birini təşkil etməsi folklorda geniş obrazlar silsiləsində təmsil olmasını təmin edib. Dağ kultunu təmsil edən obrazların araşdırılması göstərdi ki, dağ obrazı animistik görüşlərlə birləşib və folklorumuzda dağ ruhunun müxtəlif obrazları yaranıb. Bu cəhətdən dağ ruhunu cansız predmetlərdə, digər tərəfdən təbiətin canlı varlıqlarında, o cümlədən insanda təcəssüm olunmuş statuslarda aşkarlamaq mümkündür. (R.Əlizadə)

Böyük sənətkarların əsərlərində Dağ motivi xüsusi yer tutur. Səməd Vurğunun "Dağlar", Məmməd Arazın "Əlvida dağlar" şeiri, bu cəhətdən xarakterikdir. Səməd Vurğun:

Bir qonağam bu dünyada,
Bir gün ömrüm gedər bada.
Vurğunu da salar yada
Düz ilqarlı bizim dağlar.

Gülxani Pənah "Desənə" şeirində yenə dağlara üz tutub, yenə dağlarla dərdini bölüşür.

Dağlar, yenə zirvələri qar alıb,
Qırov düşüb, şaxta çöküb hüsnünə.



Yada düşüb, qanım yenə qaralıb,
Çəkə bilməz bu dərd, qəmi tək sinə.

Gül-çiçəyi saralsa da, solsa da,
Zirvələri o qar, boran alsa da,
Şair könlüm xəyallara dalsa da,
Gözlərimdə sevinc hanı görsənə...

Ətəyinə bəzək verən gülləri, havasına bir aləm qatan çiçəklərin qoxusu, zirvəsində qartal qanad çalıb uçan dağlarının dərdinə şair könlü dözə bilmir. Çünki düşmən ayağı dəyən bu dağlarda necə çiçək aça bilər, necə qartal qanad çalıb uça bilər, başını qara buludlar alan zirvələrimizdə necə günəş şəfəq saça bilər?

Səni bir də nə vaxt görən görəcəm?
Qucağına qarlı dağlar, dönəcəm?
Mən demərəm qəriblikdə öləcəm,
Çərxi-fələk bir tərsinə dönsənə.

Günahkarlar süd gölündə üzürsə,
İgidlərin bu əzaba dözürsə,
Bu baxt, qismət ürəyimi üzürsə,
Belə dünya kimə lazım, desənə...

Onun arzusu vətənimizin başı üzərini bürüyən qara buludların çəkilməsidir. Yenidən həsrət qaldığı torpaqlara, dağlara qovuşmaqdır. O, dünyanın haqsızlığına dözə bilmir. Günahkarların lazımı cəzasını almasını söyləyir.

Müəllifin "Elə darıxmışam" şeirində də bu ab-havanı görürük. Hər dəfə yaraları qövr edən şairə dağlara üz tutur. Sanki fəryad edir, üsyan edir, itirdiyi, həsrət çəkdiyi dağlara qovuşmaq istəyir.

Elə darıxmışam o dağlar üçün,
Burnumun ucutək göynəyir ürək.
Elə darıxmışam o dağlar üçün,
Göz yaşı tökürəm mən ətək-ətək.

Qar yağıb dağlara, isinməz canım,
Obalar qorunmur, ocaqlar sönüb.
Yollarda görünmür, izimiz itib,
Tanrının üzü də bizlərdən dönüb.

Əlbəttə ki, o dağların ətəyində doğma insanları gəzmirsə, yağılar el-obanı zəbt edibsə, ocaqlarımız sönübsə dağların başında necə buzlar əriyər, necə günəş yenidən çıxa bilər? Lakin şairə inanır ki, nə zamansa o xoşbəxt gün gələcək, torpaqlarımız alınacaq, həsrətə son qoyulacaq. Və onun kövrək qəlbi Qarabağ torpaqlarını bir ana balasını əzizləyib bağrına basdığı kimi sarılıb, əzizləyəcək.

Bircə ürəyimdə ölməsin dözüm,
Bircə Vətənimə dönə biləydim!
Bir körpə balamtək bağrıma basıb,
Köksümə basaydım, əzizləyərdim!

Müəllif üçün cənnət onun vətənidir. Bu dünyanın varı da, dövləti də başı qarlı dağları, gül-çiçəkli çəmənləri, özünün söylədiyi kimi, div kimi nəriltili, bol, gur sulu çaylarıdır.

***(Davamı var)***